# Bakı Enerji Həftəsi Azərbaycanın uğurlarını dünyaya təqdim etdi

**"Ölkəmizdə beynəlxalq səviyyəli tədbirlərin keçirilməsi ənənə halını alıb. Azərbaycan enerji sektoru ilə bağlı mühüm tədbirlərə də evsahibliyi edir. Belə tədbirlərdən biri də 1994-cü ildə mənbəyini neft və qaz sərgisindən götürən və əhəmiyyəti ildən-ilə artan Bakı Enerji Həftəsidir. Bu tədbir özündə Azərbaycanın enerji siyasətinin əsas istiqamətlərini müəyyənləşdirir".**

Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Məlahət İbrahimqızı deyib. Deputat bildirib ki, Azərbaycan hələ 30 il əvvəl "Əsrin müqaviləsi"nin imzalanmasına nail olmaqla öz enerji potensialını dünyaya təqdim edib: "Ölkəmiz qlobal enerji təhlükəsizliyinə verdiyi töhfələri ilə dünyanın diqqət mərkəzindədir. Bu gün Azərbaycan regionun və Avropanın əsas enerji təminatçılarındandır. Ona görə də enerji münasibətlərində də özünü doğruldan ölkəmiz etibarlı tərəfdaş kimi qəbul edilir. Bakı Enerji Həftəsi isə Azərbaycanın enerji ilə bağlı müəyyən etdiyi yeni hədəflərini dünya ictimaiyyətinə çatdırması, eləcə də bu sahədə əməkdaşlığın gücləndirilməsinə nail olunması istiqamətində uğurlu platformadır".



Deputat qeyd edib ki, Azərbaycanın COP29-a evsahibliyi edəcəyi bir dövrdə Bakı Enerji Həftəsinin keçirilməsi xüsusilə əhəmiyyətlidir: "Bu platforma, ümumiyyətlə, regionun enerji sahəsində mühüm hadisədir. Çünki Azərbaycanın enerji strategiyası təkcə ölkəmiz üçün deyil, region və Avropa üçün də faydalıdır. Bakı Enerji Həftəsi dünya miqyasında enerji təhlükəsizliyi və istehsalı, yeni mənbələrin istifadəyə verilməsi, xüsusilə də "yaşıl enerji" sektorunun inkişafı ilə bağlı vacib məsələləri müzakirə etmək üçün beynəlxalq nümayəndələrin cəlb edildiyi tədbirdir".

Məlahət İbrahimqızı vurğulayıb ki, Prezident İlham Əliyev enerji siyasətinin nə qədər önəmli olduğunu beynəlxalq müstəvidə, bütün diplomatik istiqamətlərdə bəyan edir: "Müasir dövrümüzdə enerji siyasəti ölkələrarası strateji əməkdaşlığı müəyyənləşdirən rola malikdir. Elə bu fakt da Bakı Enerji Həftəsinin qlobal əhəmiyyətindən xəbər verir. Danılmaz faktdır ki, bu platforma ölkəmizə yeni dividendlər qazandırır, Azərbaycanın xüsusilə Vətən müharibəsindən sonra artan beynəlxalq nüfuzunu daha da yüksəldir. Prezident İlham Əliyev iyunun 4-də Bakı Enerji Həftəsi çərçivəsində sərgilərin rəsmi açılış mərasimində bu barədə deyib: "Xəzər neft və qaz sərgisi otuz il bundan əvvəl 1994-cü ildə fəaliyyətə başlayaraq Azərbaycanın enerji sektoruna birbaşa xarici investisiyaların cəlb edilməsində mühüm rol oynamışdır. O vaxtdan bəri bu toplantı daha böyük tədbirə çevrilib və enerji siyasətinin bütün əsas seqmentlərini - neft, qaz, kəşfiyyat və hasilat, emal və nəqliyyatı və əlbəttə ki, "yaşıl enerji"ni əhatə edib".

Deputatın sözlərinə görə, uğurla başa çatan Bakı Enerji Həftəsi bir daha Azərbaycanın uğurlarını dünyaya təqdim etdi. Bu tədbir sübuta yetirdi ki, uzun illər neft və qaz sahəsindəki aktiv fəaliyyəti ilə seçilən Azərbaycan bu gün həm də "yaşıl keçid"in mühüm iştirakçısıdır.

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***

Azərbaycan. - 2024.- 9 iyun, № 121.- S.8.